Azərbaycan.- 2017.- 5 oktyabr.- S. 4.

# "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 yanvar tarixli 1186 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il büdcəsinin gəlirlərini və xərclərini dəqiqləşdirmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 yanvar tarixli 1186 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 33, № 5, maddə 782) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "8 370 589,8" və "14 483 856,0" rəqəmləri müvafiq olaraq "10 813 861,6" və "15242 928,0" rəqəmləri ilə əvəz edilsin.

1.2. 2-ci hissədəki cədvəlin 2.1-ci bəndində "7 550 705,3" rəqəmləri "9 826 212,0" rəqəmləri ilə, 2.2-ci bəndində "3 465,0" rəqəmləri "3 605,5" rəqəmləri ilə, 2.3-cü bəndində "16 830,0" rəqəmləri "17 688,5" rəqəmləri ilə, 2.4-cü bəndində "799 094,6" rəqəmləri "963 948,0" rəqəmləri ilə, 2.5-ci bəndində "495,0" rəqəmləri "2 407,6" rəqəmləri ilə və gəlirlərin məbləğinin cəmi göstərilən sətirdə "8 370 589,9" rəqəmləri "10 813 861,6" rəqəmləri ilə əvəz edilsin.

1.3. 3-cü hissədəki cədvəl aşağıdakı redaksiyada verilsin:

| Sıra №-si | Xərc istiqamətləri | Xərclərin məbləği (min manat) |
|---|---|---|
| 3.1. | Qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi | 105 000,0 |
| 3.2. | Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinə transfertin yuxarı həddi | 6 100 000,0 |
| 3.3. | Makroiqtisadi sabitliyin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Mərkəzi Bankına transfertin yuxarı həddi | 7 500 000,0 |
| 3.4. | Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi | 70 000,0 |
| 3.5. | Bakı-Tbilisi-Qarsyeni dəmir yolu layihəsinin maliyyələşdirilməsi | 165 825,0 |
| 3.6. | "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 29 304,0 |
| 3.7. | "Cənub qaz dəhlizi" layihələrində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi | 496 155,0 |
| 3.8. | Türkiyə Respublikasında "STAR" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi | 744 072,0 |
| 3.9. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 32 572,0 |
| | **Cəmi** | **15242 928,0** |

1.4. Bu fərmanla təsdiq edilmiş "2017-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti"nin1.7-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.8-ci bənd əlavə edilsin:

"1.8. Türkiyə Respublikasında "STAR" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi.".

2. Azərbaycan Respublikasının Dövlət Neft Fondu bu fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2017-ci il*